# "Tərəqqi" medalı ilə təltif edilmiş qadınlara mükafatlar təqdim olunub

**Aprelin 16-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində ölkənin ictimai həyatında səmərəli fəaliyyətlərinə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif olunan qadınlara mükafatlarının təqdimetmə mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən komitə sədri Bahar Muradova Azərbaycan qadınının tarixən ailə dəyərlərimizi qoruyan və inkişaf etdirən, layiqli vətəndaş, eləcə də torpaqlarımızı işğaldan qurtaran igid qəhrəmanlar yetişdirən fədakar analar olduqlarını vurğulayıb. B.Muradova milli-mənəvi dəyərlərimizin yaşadılmasında əsas yükün qadınların çiyinlərinə düşdüyünü, xalqımızın tarixən maarifpərvər və bacarıqlı xanımlarımızla qürur duyduğunu deyib.

Ümummilli Lider Heydər Əliyevin qadınları hər zaman yüksək qiymətləndirdiyini, onların ailədə, cəmiyyətdə, dövlət həyatındakı yerinə özünəməxsus münasibəti olduğunu xatırladan komitə sədri Ulu Öndərin qadın siyasətində qoyduğu ənənələrin bu gün də davam etdirildiyini diqqətə çatdırıb.

"Heydər Əliyev İli" çərçivəsində reallaşdırılan layihələrdən söz açan B.Muradova Azərbaycanın ötən il əldə etdiyi bir çox nailiyyətləri xatırladıb, Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Zəfərdən sonra ölkəmizin yeni-yeni uğurlara imza atdığını, antiterror tədbirləri nəticəsində öz suverenliyini, ərazi bütövlüyünü bərpa etdiyini bildirib. Komitə sədri qələbə ruhunda keçirilən ilk prezident seçkilərinin nəticələrini Ulu Öndərin irsinə sadiqliyin göstəricisi adlandırıb. Əlavə edib ki, bütün bu proseslərdə, eyni zamanda yaxın gələcəkdə Qarabağa qayıdışın təmin olunmasında qadınlarımızın rolu danılmazdır.

Prezidentin Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbrikdə "Xalqımız hər zaman qadınlara çox böyük hörmət, ehtiram bəsləmiş, ana haqqını üstün tutmuşdur" fikrini xatırladan Bahar Muradova ölkəmizin hazırkı dövlət qadın siyasətinin bu zəmin üzərində inkişaf etməkdə olduğunu deyib.

Sonda komitə sədri təltif olunan qadınları təbrik edib, Prezidentin imzası ilə dövlət mükafatı almağın şərəf, qürur və məsuliyyət olduğunu, onların medalı ləyaqət və fəxarətlə daşıyacaqlarına inandığını bildirib.

Daha sonra Azərbaycan elminin və mədəniyyətinin inkişafında öz sözünü demiş, eləcə də ictimai-siyasi sahədə mühüm xidmətləri olan qadınlara Prezident təltifləri təqdim edilib.

Mükafatlandırılan qadınlar çıxışlarında qalib ölkənin vətəndaşları kimi təltif edilmələrinin qürurverici olduğunu söyləyiblər. Bu təltifi fəaliyyətlərində şərəfli bir səhifə kimi qiymətləndirərək Azərbaycan qadınlarına göstərdiyi diqqət və etimada görə dövlət başçısına minnətdarlıqlarını bildirib, etimadı doğruldacaqlarını, Vətənimizə, millətimizə sadiq olacaqlarını vurğulayıblar.

Azərbaycan.- 2024.- 17 aprel, № 76.- S.4.